# İlham Əliyevin səfərinə böyük diqqət

## Türkiyə mediası Azərbaycan Prezidentini ölkələrinin əsas dostu adlandırdı

Etibarlı strateji tərəfdaşlar olan Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi bu gün ölkələrimizin təkcə mövcud olduqları regionda yox, onun sərhədlərindən kənarda da əsas söz sahiblərindən biri kimi çıxış etməsinə səbəb olmaqdadır.

Siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da inkişafı Azərbaycana və Türkiyəyə uğurlar vəd edir. Heç şübhəsiz ki, prosesin bu şəkildə vüsət almasına, bütün sahələrdə əlaqələrin uğurla inkişaf edərək strateji tərəfdaşlıq münasibətləri kimi yüksək səviyyəyə çatmasında bu gün liderlər amili də əsas rol oynayır.

İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də Türkiyədən olan həmkarı Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm iki ölkənin münasibətlərini daha möhkəm özüllər üzərində qurur. Bu mənada Prezident İlham Əliyevin Türkiyəyə son səfərinin də qardaş ölkənin xüsusi diqqət mərkəzində yer alması tamamilə təbii qarşılanır.

İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresi və burada müzakirə edilən məsələlər beynəlxalq miqyasda xüsusi diqqət mərkəzindədir. Dövlət və hökumət nümayəndələrinin, eləcə də dünyanın aparıcı neft və qaz şirkətləri rəhbərlərinin iştirakı ilə keçirilən konqresdə neft-qaz yataqlarına aid kəşfiyyat işləri, karbohidrogen ehtiyatlarının emalı, hazır məhsulların daşınması, onların alıcılara təhlükəsiz çatdırılması və digər məsələlər ətrafında müzakirələr aparılır.

Azərbaycan Prezidenti İlham Əliyevin konqresin açılışında iştirakı üçün Türkiyəyə səfəri və qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü Türkiyə KİV-nin xüsusi diqqət mərkəzində yer alır. Bu barədə onlarla teleşirkət, qəzet və internet portalı xəbərlər paylaşıblar.

Türkiyənin məşhur "Sabah" qəzetinin "R.Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdü" başlıqlı xəbərində yazılır ki, Azərbaycan Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb və birgə şam ediblər: "Görüş 1 saat 45 dəqiqə çəkib. İlham Əliyev 22-ci Dünya Neft Konqresinin Türkiyədə keçirilməsi münasibətilə həmkarı Rəcəb Tayyib Ərdoğanı təbrik edib".

Türkiyənin digər nəşri "Milliyət" qəzəti isə "Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda" başlıqlı xəbərə yer ayırıb. Bildirilir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Dövlət başçıları birgə foto çəkdirib, müzakirələr aparıb və şam ediblər: "Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb".

"Anadolu" Xəbər Agentliyinin isə "Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü" başlıqlı xəbərində qeyd olunur ki, söhbət zamanı dövlət başçıları Türkiyə və Azərbaycanın bütün məsələlərlə bağlı bir-birinin yanında olduğunu diqqətə çatdırıblar.

Məşhur "TRT Haber" kanalının isə "Prezident Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü" başlıqlı xəbərində deyilir ki, dövlət başçıları görüşdə ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər. Bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olunub. Prezident İlham Əliyev son vaxtlar təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə Türkiyə Prezidentinə ətraflı məlumat verib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin həmişə olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini diqqətə çatdırıb.

"İhlas", "Cihan", "Mynet.com", "Sondakika.com", "Habergzt.com", "Haber24.com.tr", "Trabzonhabercisi.com", "Anayurtgazetesi.com" agentlikləri, "Hürriyət", "Star", "Habertürk", "Vətən", "Cumhuriyyət" qəzetləri, "A Haber", "CNN Türk" "TGRT Haber" kanalları və digər media orqanları da Türkiyə Prezidentinin həmkarı İlham Əliyevlə görüşünə yer ayırıb, burada səslənən fikirləri oxucuların diqqətinə çatdırıblar.

Xüsusi qeyd edilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Vurğulanıb ki, Azərbaycan Prezidenti Türkiyənin ən yaxın və səmimi dostudur.

***Elçin CƏFƏROV, "Azərbaycan"***























































